

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 48-49
(7097-7098) ❁ Cümə, 28 iyun 2013-cü il ❁ Qəzet ayda 4 dəfə çıxır ❁ Qiyməti 40 qəpik

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

İyunun 21-də Brüsseldə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Herman Van Rompuyun görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu. Prezident İlham Əliyevin bu səfərinin ikitərəfli əməkdaşlığın daha da inkişafına xidmət etdiyi vurğulandı.

Görüşdə habelə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları, regional təhlükəsizlik və sabitlik, enerji sahəsində əməkdaşlıq və bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

❁ ❁ ❁

Azərbaycan Prezidenti İlham Əliyev Avropa Komissiyasının sədri Xose Manuel Barrozu ilə görüşmüşdür.

Görüşdə əlaqələrimizin hazırkı vəziyyəti və perspektivlərinə dair işgüzar söhbətlər getmişdir.

❁ ❁ ❁

Paytaxtda «Alov qülləri» kompleksindəki «Fairmont Baku» otelinin açılışı olmuşdur.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva açılış mərasimində iştirak etmişlər.

❁ ❁ ❁

Bakıda Silahlı Qüvvələrin Baş Klinik Hospitalının yeni inşa edilmiş ikinci müalicə korpusunun açılışı olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev açılışda iştirak etmişdir.

❁ ❁ ❁

Azərbaycan Prezidenti İlham Əliyev diplomatik fəaliyyətinin başa çatması münasibətilə Niderland Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri ilə görüşmüşdür.

❁ ❁ ❁

Dövlətimizin başçısı İlham Əliyev Böyük Britaniyanın Müdafiə Nazirinin Parlamentar Beynəlxalq Təhlükəsizlik Strategiyası üzrə birinci müavinini qəbul etmişdir.

❁ ❁ ❁

Prezident İlham Əliyev Azərbaycan Respublikası teatr xadimlərinin təltif edilməsi və onlara fəxri adların verilməsi haqqında sərəncam imzalamışdır.

❁ ❁ ❁

Azərbaycan Prezidenti İlham Əliyev Rumıniyanın Baş nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**Miri RƏHİMOV.**

## Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 95-ci ildönümü münasibətilə Bakının Azadlıq meydanında təntənəli hərbi parad keçirilmişdir

### *Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev hərbi paradda iştirak etmişdir*

***Bakı, 26 iyun (AzərTAc). İyunun 26-da Bakının Azadlıq meydanında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 95-ci ildönümü münasibətilə təntənəli hərbi parad keçirilmişdir.***

***Dövlət və hökumət rəsmiləri, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, Milli Məclisin deputatları, xarici ölkələrin respublikamızdakı səfirləri, beynəlxalq təşkilatların əməkdaşları, müharibə veteranları və paytaxt ictimaiyyətinin nümayəndələri hərbi paradı izləmişlər.***

***Meydana toplaşanlar Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevi sürəkli alqışlarla qarşıladılar.***

***Müdafiə naziri, general-polkovnik Səfər Əbiyev Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.***

***Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev əsgərləri salamladı.***

***Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestri Azərbaycanın dövlət himnini ifa etdi.***

***Prezident İlham Əliyev hərbi paradda nitq söylədi.***



Dövlətimizin başçısı Silahlı Qüvvələr Günü münasibətilə xalqımızı təbrik etdi. "Bugünkü hərbi paradda Azərbaycan dövləti hərbi qüdrətini nümayiş etdirəcəkdir", - deyən Prezident İlham Əliyev vurğuladı ki, ordu quruculuğu ölkəmiz üçün ən vacib məsələdir. Azərbaycanın müharibə şəraitində yaşadığını diqqətə çatdıran dövlətimizin başçısı ərazi bütövlüyümüzün bərpası üçün ordumuzun hər zaman hazır olduğunu dedi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə danışan Prezident, Ali Baş Komandan İlham Əliyev bildirdi ki, bütün beynəlxalq təşkilatların Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsinə baxmayaraq, Ermənistanın işğalı davam edir və belə olan halda ölkəmizdə ordu quruculuğuna böyük ehtiyac vardır. "Xalqımız və dövlətimiz Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcəkdir", - deyən Prezident İlham Əliyev bu mövqeni güclü ordu potensialının daha da möhkəmləndirdiyini bildirdi.

Son illərdə ordumuzun texniki təchizatı istiqamətində mühüm addımların atıldığını deyən dövlətimizin başçısı budəfəki paradın Azərbaycanda istehsal edilən hərbi texnikanın nümayişi baxımından da əlamətdar olduğunu, orduya ayrılan xərclərin ildən-ilə artdığını bildirdi. Azərbaycanın bölgədə sabitləşdirici və böyük nüfuza malik ölkə olduğunu deyən Prezident İlham Əliyev onu da vurğuladı ki, getdikcə güclənən ölkəmizin iqtisadi qüdrəti artır və bütün bunlar Azərbaycanın öz torpaqlarını işğaldan azad edəcəyinə əminlik yaradır. "Biz çox güclü hərbi sənayeyə malikik", - deyən Prezident İlham Əliyev bu sahədə ölkəmizin ixrac potensialının artdığını, hərbçilərin sosial müdafiəsinin təşkili məsələlərinin uğurla həll olunduğunu bildirdi. "Bizim gücümüz bizim birliyimizdədir", - deyən Ali Baş Komandan ölkəmizin bütün təşəbbüslərinin sülhə, beynəlxalq əməkdaşlığa söykəndiyini bildirdi.

Prezident İlham Əliyev dedi: "Son 20 ildə Azərbaycan sübut edib ki, azad ölkə kimi yaşaya bilər. Bizim güclü siyasi iradəmiz, güclü iqtisadiyyatımız və güclü ordumuz vardır". Ali Baş Komandan bildirdi ki, ordu dövlətimizin müstəqil siyasətini qoruyur və güclü Azərbaycan Ordusu Dağlıq Qarabağ münaqişəsinin həllində öz sözünü deyəcəkdir.

**(Ardı 2-ci səhifədə).**